## Yuval Noa Harariyə təriflər

"*Sapiensi* bu qədər maraqlı və düşündürücü edən odur ki, o çox geniş bir tarixi danışır – bu möhtəşəm sivilizasiyanı qurmağımıza imkan verən bəzi əsas şeylərdən bəhs edir; biz bu nailiyyətləri, adətən, hazır kimi qəbul edirik, halbuki belə deyilmiş. Kitab sizə Yer üzündə nə qədər qısa müddət yaşadığımızı anlamaq üçün bir perspektiv qazandırır".

Barak Obama

"*Sapiensin* sürətlə beynəlxalq bestsellerə çevrilməsinin sadə bir səbəbi var. O həm tarix, həm də müasir dünya haqqında ən böyük sualları araşdırır və təsiredici bir dildə yazılıb. Çox bəyənəcəksiniz!"

Cared Daymond

"Son zamanlar oxuduğum ən yaxşı kitablardan biri… İnsan növlərinin necə inkişaf etdiyinə dair maraqlı ümumi baxış təklif edir".

Lili Koul

"Hararinin yanaşmasını bənzərsiz edən odur ki, o, insanları birləşdirmək üçün hekayələrin və miflərin gücünə fokuslanır… Erkən insan tarixinə maraqlı, əyləncəli bir baxış istəyən hər kəsə bu kitabı tövsiyə edərdim… Harari tarixi o qədər anlaşılan şəkildə danışır ki, kitabı əlinizdən kənara qoymaq çətin olacaq".

Bill Qeyts

“Sevdiyim yazıçılardan və mütəfəkkirlərdən biridir…
Bəşər tariximizi nəql etmə və gələcəyimizə
baxış tərzi ilə sizi heyran edəcək”.

Natali Portman

“*Sapiens* parlaq bir kitabdır – həm əyləndirici,
həm də düşündürücüdür”.

*Sunday Express*

“Harari tarixi mövzulara da biologiya, təkamül,
antropologiya və iqtisadiyyat haqqındakı müzakirələrində
olduğu qədər aydın və səlis yanaşır… Onu oxumağa davam etsəniz,
çox şey öyrənəcəksiniz”.

*Daily Telegraph*

“İlk kəlməsindən sonuncusuna qədər heyrətamiz…
Bəlkə də, oxuduğum ən yaxşı kitabdır”.

Kris Evans

“*(Homo Deus)* insanlığın hara getdiyini tamamilə
aydın və əlçatan şəkildə göstərir”.

Carvis Koker

“Yuval Noa Harari dövrümüzün ən cazibədar, axıcı dillə yazan
və oxucunu dərindən düşündürən müəlliflərindən biridir.
*Sapiensdə* olduğu kimi, bu kitabı da bitirəndə
özünüzü daha müdrik hiss edirsiniz”.

Met Heyq

“Hararini çağımızın bir çox salnaməçilərindən üstün edən
onun qeyri-adi aydınlığı və diqqətidir”.

*Sunday Times*

“Çətin, oxunaqlı və düşündürücü… O, insanlığı gələcəkdə
nələrin gözləyə biləcəyinə ağıllı bir baxış təqdim edir”.

*Time*

“Şəxsiyyət, şüur və zəka məsələlərinə dərindən nüfuz
edən cəlbedici bir kitab... Harari fitri istedada sahib bir şərhçidir,
həmişə yaxşı hekayə və ya yaddaqalan bənzətmə ilə görüşünüzə gəlir.
Nəticədə, onu tarixçi kimi deyil, universal bir müdrik kimi
görmək insana xoş gəlir”.

*Observer*

“Müasir həyat həddindən artıq dözülməz görünə bilər...
*“XXI əsr üçün 21 dərs”* bizə bu mövzuda irəliləməyə kömək edəcək.
Hovuz kənarında oxumaq üçün faydalı bir kitab”.

*Elle*

“Hararinin qədim tarixdən nevrologiyaya, fəlsəfəyə və süni intellektə qədər
müxtəlif fənlərə dair ideyaları bir araya gətirmək dahiliyi ona haradan
gəldiyimizi və hara gedə biləcəyimizi anlamaq ehtiyacını həll etməyə imkan
verib... *“21 dərs”* intellektual macəra və ədəbi macəra ilə işıqlandırılır”.

*Financial Times*

“Hararinin fəlsəfi təhlilinin inandırıcılığını və əsərlərinin
cəlbedici təbiətini inkar etmək çətindir”.

*Esquire*

# Nexus

**Daş dövründən Süni İntellektə qədər informasiya şəbəkələrinin qısa tarixi**

**Yuval Noa Harari**

İngiliscədən tərcümə:
Azər Əhmədov

qanun nəşriyyatı

# Nexus

## A Brief History of Information Networks from the Stone Age to AI

Yuval Noah Harari

Bəşər tarixində silahlar və pul-para qədər – bəzən onlardan da ötə – informasiya həlledici rol oynayıb. Yuval Noa Hararinin "Nexus" əsəri bizləri Daş dövründən Süni İntellekt dövrünə qədər uzanan informasiya şəbəkələri boyunca bir səyahətə aparır. Və göstərir ki, miflərdən yazıya, çapdan internetə, mediadan süni zəka sistemlərinə qədər informasiya – cəmiyyətləri formalaşdıran və idarə edən əsas qüvvə olub.

Bu kitab sadəcə texnologiyanın inkişafını deyil, onun ictimai quruluşlara, siyasi güclərə və etik prinsiplərə təsirini də təhlil edir. Harari izah edir ki, tarixən informasiya axınına nəzarət edən dini və siyasi elitalar indi öz yerini alqoritmlərə və süni intellekt sistemlərinə verir. Əgər bu texnologiyalar demokratik nəzarət və etik prinsiplərlə tənzimlənməsə, yaxın gələcəkdə informasiya üzərində hökmranlıq bir neçə qlobal gücün və ictimai hesabatlılıqdan uzaq sistemlərin əlinə keçə bilər. Xüsusilə də avtoritar rejimlərdə süni intellektin informasiyanı nəzarət altına alması cəmiyyətlərin azadlığını təhdid edə bilər. Harari bu baxımdan texnoloji sistemlərin yalnız güclü deyil, həm də özünütənzimləyici və şəffaf olmasının vacibliyini vurğulayır. Axı gələcəyin informasiya nizamı bizim bugünkü qərarlarımızdan asılıdır.

"Nexus" həm tarixi bələdçi, həm də bir çağırışdır – oxucunu informasiya üzərindəki güc münasibətlərini dərk etməyə və onları daha ədalətli şəkildə təşkil etməyə səsləyir.

*İtzikə sevgi ilə və müdrikliyi sevən hər kəsə...*

*Min bir arzu-xəyal yolunda biz gerçəklik axtarırıq.*